# Mündəricat


01 Effektiv Müəllim Siyasətləri

02 Beynəlxalq Təhsildə Virtual Tələbə Mobilliyi

03 Təhsili iqlim böhranının uzunmüddətli həllinə çevirmək

04 Amerika Birləşmiş Ştatları, Virciniya ştatı: Karyera Hazırlığı İcmalı




# Effektiv Müəllim Siyasətləri

01

World Bank tərəfindən “Təhsilin dəyişdirilməsi: Effektiv Müəllim Siyasətləri” adlı hesabat hazırlanmışdır. Şagirdlərin öyrənməsini yaxşılaşdırmaq üçün müəllimlərə dəstək və effektiv tədris vacibdir və zəruridir. Covid-19 pandemiyasından sonra bu iş həmişəkindən daha aktualdır. Təhsilə, müəllimlərə və tədrisə artan investisiyalara baxmayaraq öyrənmə nəticələrində istənilən irəliləyişlər əldə edilmir. Hesabatda bildirilir ki, bütün dünyada tədrisin keyfiyyəti çox aşağıdır, çünki təhsil sistemləri yüksək performanslı müəllim işçi qüvvəsini işə götürmək, hazırlamaq, yerləşdirmək, öyrətmək və dəstəkləmək üçün effektiv mübarizə aparır. Müəllimlər üçün hazırlanan siyasətlərin uğuru onun müəllim səviyyəsində dəyişikliyə nə dərəcədə köməklik göstərməsindən, təhsil sisteminin siyasi mənzərəsi, maliyyə məhdudiyyətləri və idarəetmə imkanları kontekstində həyata keçirilməsinin mümkünlüyündən asılıdır. Belə ki, bu siyasət məqsədyönlü dəyişikliklərin qəbulu və davam etdirilməsi zamanı üzləşəcəkləri maneələri müəyyən etməli və maneələri aradan qaldıraraq müəllimlərin necə təcrübə keçəcəyini nəzərə almalıdır. Eyni zamanda uğurlu dəyişiklik üçün aradan qaldırılması lazım olan üç fərdi maneə aşağıdakılardır:
1. Fərdlərin onlara olan gözləntilərin  və gözləntinin necə həyata keçirəcəkləri ilə bağlı aydın olmayan durumlar zamanı yaranan maneə;
2.  Fərdlərin nə edəcəyini bildiyi, lakin onu həyata keçirmək üçün çətinliklərlə qarşılaşdığı zaman yaranan maneə;
3. Fərdlərin nə edəcəyini bildiyi, lakin bunu etməyə həvəsləndirilmədiyi zaman yaranan maneə.

Təhsil siyasətçiləri müəyyən müəllim siyasəti ilə hədəflənən dəyişiklik üçün fərdi səviyyədə maneələrin diaqnostikası zamanı 3 əsas suala cavab tapmalıdırlar:

1) Hədəf dəyişikliyi(lər) müəllimlər üçün aydındırmı?
2) Hədəf dəyişikliyi(ləri) müəllimlər üçün edilə bilinərmi?
3) Hədəf dəyişikliyi(lər) müəllimlər üçün faydalıdırmı?

Müəllimlərin müəyyən bir siyasətlə qarşılaşa biləcəkləri dəyişiklik üçün hər hansı potensial maneələri aradan qaldırmaq səbəbi ilə “Aydın, Edilə bilən və Mükafatlandırma” yanaşmasından istifadə etməklə müəllim siyasətləri daha effektiv edilə bilər:
- 1-ci siyasətçilər və sistem rəhbərləri müəyyən bir müəllim siyasəti ilə hədəflənən xüsusi dəyişiklikləri müəyyən etməlidir;
- 2-ci xüsusən hədəf dəyişikliyinin(lərin) müəllimlər üçün aydın, həyata keçirilə bilən və mükafatlandırıcı olub-olmadığını soruşmaqla müəllimlərin məqsədyönlü dəyişiklikləri qəbul edərkən üzləşə biləcəyi fərdi səviyyəli maneələri müəyyən etməlidir;
- 3-cü  sübuta əsaslanan strategiyaları qəbul etməklə dəyişiklik üçün maneələrin aradan qaldırılmasından ibarətdir.

Şagirdlərin yüksək keyfiyyətli tədris və öyrənmə imkanlarından istifadə edə bilməsini təmin etmək üçün doğru müəllimlər seçilməlidir. Bu müəllimlərin işə qəbulu və yerləşdirmə siyasətləri vasitəsilə onların ən çox ehtiyac duyulan yerdə yerləşdirilməsini təmin etməyi əhatə edir.

Birinci problem müəllimlik peşəsinə müraciət etmək üçün güclü namizədlərin cəlb edilməsidir. Ümumi maneə odur ki, müəllim peşəsi çox vaxt güclü namizədlər tərəfindən mükafatlandırıcı kimi qəbul edilmir. Çünki, müəllim hazırlığı proqramları və karyera prestijli sahə kimi hesab olunmur. Bundan əlavə, işəgötürmə prosesi məqsədəmüvafiq şəkildə təşkil edilmir və buna görə də potensial namizədlər üçün müəllimliyə necə müraciət etmələri aydın olmaya bilər.

Yaxşı planlaşdırılmış və strukturlaşdırılmış işə qəbul prosesi də güclü namizədlərin müəllim olmaq üçün müraciət etmələrini daha məqsədəuyğun edə bilər.



Ən yaxşı ixtisaslı namizədləri müəyyən edən seçim prosesləri müəllimlik peşəsinə müraciət etmək, güclü namizədləri cəlb etmək üçün vacibdir. Ümumi maneələrə seçim prosesinin düzgün təşkil olunmaması və müəllimlərin effektiv tədrislə əlaqəli keyfiyyətlərə əsaslanaraq seçilməməsi daxildir. Hesabatda sınaq müddətlərinin müəllimlərin sinifdə göstərdikləri performansa görə seçilməsi üçün faydalı strategiya olduğu da qeyd edilmişdir. Potensiallı müəllimləri lazımi məktəblərə cəlb edən tətbiqetmə siyasətləri şagirdlərin yüksək keyfiyyətli tədris və öyrənmə imkanlarına çıxışını təmin etmək üçün açardır. Bununla belə, müəllim çatışmazlığı çox vaxt ucqar və kənd yerlərindəki məktəblərdə müşahidə olunur. Belə ki, müəllimlərin yerləşdirilməsi zamanı bir sıra fərdi səviyyəli maneələr onları ehtiyac olan məktəblərdə işləmək seçimindən çəkindirə bilər. Müəllimləri çətin kadrların olduğu sahələrdə dərs keçməyi seçməyə təşviq etmək üçün maliyyə stimulları vasitəsilə, daxili və xarici mükafatlandırma yolu ilə tədrisə cəlb edə bilərlər.

Hesabatda qeyd olunur ki, bir sıra aşağı gəlirli ölkələrdə müəllimlər müvafiq məzmun biliyi ilə təchiz olunmayıb və effektiv təlimatlarla məlumatlanmayıblar. Bu da onların effektiv tədrisinə mane olur. Bu səbəbdən də müəllim namizədlərinin formalaşmasına kömək etmək məqsədilə məzmun bilikləri müəllimlərin bilik və bacarıqlarına uyğunlaşdırılmalıdır.
Bundan əlavə, hesabatda qeyd olunur ki, Kouçinq vasitəsilə pedaqoji liderlər müəllimlərin məzmun biliklərindəki boşluqları hədəfləyə, effektiv təlimatı modelləşdirə bilər və müəllimlərə bacarıqlarını inkişaf etdirməyə kömək etmək üçün təcrübəyə əsaslanan rəy və təlimat təqdim edilə bilər.
Strukturlaşdırılmış pedaqoji materiallar müəllimlərə dərslərin məzmunu, əhatə dairəsi və ardıcıllığı ilə bağlı bələdçilik edə bilər.
Lakin, müəllimlərə bu materiallar təqdim olunduqda onlardan istifadə qaydaları öyrətməli, maddi və mənəvi ehtiyacları ödəməklə müəllimləri uğurlu fəaliyyətə təşviq edən siyasətlər həyata keçirməlidir.
Qiymətləndirmə sistemləri yaxşı müəllimlərin seçilməsində, onların təcrübəsinin qiymətləndirilməsində onlara lazımi dəstəyin verilməsi güclü və zəif tərəflərinin diaqnostikasında mühüm vasitədir.
Karyera yüksəlişi imkanları eynilə müəllimləri öz bacarıqlarını ən yaxşı şəkildə yerinə yetirməyə həvəsləndirməyə kömək edə bilər. Hal-hazırda bir çox ölkələrdə karyera yüksəlişi əsasən müəllim təcrübəsinə və ya təhsil səviyyəsinə əsaslanır. Lakin karyera yüksəlişi əvəzinə müəllimləri performansa əsaslanan yüksəlişlər və əmək haqqı artımları ilə də mükafatlandırmaq effektiv ola bilər.

Effektiv müəllim siyasətinin genişləndirilməsi çox mürəkkəb və tələbkar bir işdir. Siyasətlərin hədəflədiyi dəyişikliklərin qüvvəyə minməsini və  davamlı olmasını təmin etmək üçün siyasi məqbulluq nəzərə alınmalıdır. Bu, dəyişiklikləri idarə etmək, idarəetmə qabiliyyətini artırmaq və davamlılığı təmin etmək üçün məlumatlardan istifadəni əhatə edir. Fəaliyyətin mümkünlüyü o deməkdir ki, müəllim siyasətləri sistemin idarəetmə qabiliyyəti, sistem və maliyyə imkanları, müəllimlərin bilik və bacarığı ciddi şəkildə nəzərə alınmalıdır.  Beləliklə, müəllim siyasətləri aşağıdakı kimi hazırlanmalı və həyata keçirilməlidir:
- Təhsil məqsədlərinə çatmaq üçün resursların artırılması yolunu təmin etməklə;
- Hökumətin idarəetmə qabiliyyəti-mərkəzi, milli, yerli, və məktəb səviyyələri üzrə genişləndirilməklə.

Həmçinin siyasi cəhətdən məqbul olmaq üçün ölkələr aşağıdakıları edə bilər:
- Aydın və iddialı təhsil, öyrənmə məqsədləri müəyyən edə, bunları geniş ictimaiyyətə çatdıra, habelə müəyyən bir müəllim siyasətinin məqsədə çatmağa necə töhfə verəcəyini izah etmək;
- Siyasətlər üzərində veto hüququna malik olanlar da daxil olmaqla əsas maraqlı tərəflərlə fəal əlaqə yaratmaq.

Siyasət qurucuları tədris və öyrənməni təkmilləşdirməklə peşəkar müəllim siyasəti hədəflənən dəyişikliklər qarşısında həm fərdi, həm də sistem səviyyəli maneələri diaqnostika və həll etməyi tələb edir.

Mənbə: World Bank. 2023. Making Teacher Policy Work. © Washington, DC: World Bank.
http://hdl.handle.net/10986/40579

# Beynəlxalq Təhsildə Virtual Tələbə Mobilliyi

Dünya Təhsil Xəbərləri və İcmal bülletenində "Beynəlxalq Təhsildə Virtual Tələbə Mobilliyinin Yüksəldilməsi" adlı məqalə dərc olunmuşdur.

Məqalədə ABŞ-da beynəlxalq tələbə mobilliyinin inkişaf edən mənzərəsi araşdırılmış, 2021/2022-ci tədris ili ərzində beynəlxalq tələbələrin sayının pandemiyadan əvvəlki səviyyələrlə müqayisədə 12% azaldığını vurğulayır. Pandemiya ilə bağlı səyahət məhdudiyyətləri, iqtisadi qeyri-müəyyənlik və viza siyasətindəki dəyişikliklər kimi müxtəlif çağırışlara cavab olaraq virtual tələbə mobilliyi (VSM) əlverişli alternativ kimi meydana çıxdı. UNESCO tərəfindən virtual tələbə mobilliyi həm imkanları, həm də problemləri olan transformasiyaedici qüvvə kimi təqdim olunur. Buda transsərhəd akademik və mədəni mübadilələri asanlaşdırmaq üçün texnologiyadan istifadə kimi müəyyən edilə bilər.Virtual tələbə mobilliyi əlçatanlığı, çevikliyi və fiziki maneələri dəf etmək qabiliyyətinə görə fərqlənir. Belə ki, bu inklüzivliyi, müxtəlifliyi və qlobal şəbəkələşməni təşviq etmək qabiliyyətinə əsaslanır.

Məqalədə deyilir ki, onlayn təhsil təkcə tələbələrə öz sürətləri ilə öyrənmək üçün çeviklik təmin etmir, həm də mədəniyyətlərarası mübadiləni təşviq edir, perspektivləri genişləndirir və beynəlxalq əlaqələri gücləndirir.
Maliyyə baxımından virtual tələbə mobilliyi universitetlər üçün potensial gəlir mənbəyi kimi mövqe tutur. ABŞ-da təhsil alan beynəlxalq tələbələrin yaratdığı iqtisadi fəallıq azalsa da, məqalədə yüksək keyfiyyətli virtual proqramların qlobal auditoriyanı cəlb edə və institusional gəlirlərə töhfə verə biləcəyi bildirilir. Virtual tələbə mobililiyi ilə əlaqədar iqtisadi qazancın müqayisəsi üçün kifayət qədər məlumat olmadığına görə, bu sahədə bir sıra çatışmazlıqların olduğunu etiraf etmək lazımdır. Rabitə texnologiyası tələbələrə müasir dövrdə vacib olan rəqəmsal savadlılıq bacarıqlarını təmin edən virtual tələbə mobilliyinin əsas stimullaşdırıcısı kimi müəyyən edilir.

Məqalədə vurğulanır ki, videokonfrans, onlayn forumlar, paylaşılan sənədlər və virtual sinif otaqları da daxil olmaqla texnologiyaya dəstək verən kommunikasiyalar real vaxt rejimində qarşılıqlı əlaqəni asanlaşdırır. Eyni zamanda, müxtəlif mənşəli tələbələr arasında əlaqəni gücləndirir.
Bundan əlavə, virtual tələbə mobilliyinin çərçivəsi ABŞ-da təhsil alan beynəlxalq tələbələrdən kənara çıxaraq, virtual mübadilə proqramlarında iştirak edən yerli tələbələri də əhatə edir. Birgə Onlayn Beynəlxalq Öyrənmə (COIL) mədəniyyətlərarası dialoqa diqqət yetirməsi kimi təşəbbüslərlə çıxış edir. Eyni zamanda, bu müxtəlif institutlardan olan tələbələrə layihələr və ya birgə kurslar üzərində əməkdaşlıq etməyə imkan verən virtual mübadilə proqramlarının uğurlu nümunələri kimi vurğulanır. Bütün bunlara baxmayaraq, çətinliklər, xüsusən də zəruri rabitə texnologiyalarına və etibarlı internet bağlantılarına qeyri-bərabər çıxış da məqalədə öz əksini tapır. Bu rəqəmsal uçurum aztəminatlı ailələrdən olan tələbələr üçün unikal bir dezavantaj yaradır. Həmçinin bütün tələbələr üçün inklüziv və əlçatan virtual mobilliyi təmin etmək üçün səylər tələb edir.

Beynəlxalq təhsilin tanınmış və dəyərli forması kimi virtual mobilliyi yaratmaq üçün məqalə institusional dəstəyi müdafiə edir. Universitetlərə virtual mobilliyi öz kurikulumlarına inteqrasiya etmək üçün resurslara, təlimlərə və fakültə dəstəyinə sərmayə qoymağa çağırır. YUNESKO-nun Beynəlxalq Ali Təhsil İnstitutunun hesabatı virtual tələbə mobilliyi təşəbbüslərinin maliyyələşdirilməsində dövlət dəstəyinin rolunu xüsusi vurğulayır. Bu istiqamətdə innovativ təcrübələrə görə qrantlar və mükafatlar vasitəsilə virtual tələbə mobilliyinin qəbulunu təşviq etməyi tövsiyə edir.
Yekun olaraq məqalədə ali təhsil müəssisələri beynəlxalq təhsildə nəzərəçarpacaq dəyişiklikləri nəzərə alaraq, virtual tələbə mobilliyini öz planlarına daxil etməyi tövsiyə edir. Çətinlikləri qəbul etməklə yanaşı, virtual mobillik immersiv və mədəniyyətlərarası öyrənmə təcrübələrini təmin edən, qlobal əməkdaşlığa və təhsildə innovasiyaya təkan verən transformativ platforma kimi təsvir olunur.

Mənbə:https://wenr.wes.org/2023/11/shifting-tides-exploring-the-rise-of-virtual-student-mobility-in-international-education

# Təhsili iqlim böhranının uzunmüddətli həllinə çevirmək

03

YUNESKO tərəfindən "Təhsili iqlim böhranının uzunmüddətli həllinə çevirmək" adlı məqalə hazırlanmışdır. Məqalədə iqlim dəyişikliyini müxtəlif sahələrə təsir edən bir məsələ kimi tanımaqla yanaşı, bu problemin həlli yollarını tapmağa nail olmaq üçün təhsilin müstəsna bir rolu olduğu vurğulanır. İqlim dəyişikliyi təhsilə də təsirsiz ötüşmür. Bu, təhsil infrastrukturunda təhlükələr yaradaraq, təhsilalanların, təhsilverənlərin təhlükəsizliyini və rifahını təhlükə altına alır. Məqalə təhsilin iqlim böhranından ciddi narahatlıq keçirdiyini, ancaq eyni zamanda bu məsələnin uzunmüddətli həllinə nail olmağın vacib olduğunu vurğulayır.

Buna əlavə olaraq məqalədə, Birləşmiş Millətlər İqlim Dəyişikliyi Konfransında YUNESKO-nun iqlim dəyişikliyi təhsili və yaşıl təşəbbüsləri sürətləndirmək üçün gördüyü işlərin əhəmiyyəti vurğulanır. Təşkilat, ölkələrdən tələbələri, müəllimləri iqlim böhranı ilə mübarizə üçün lazım olan bilik və bacarıqlarla təchiz etmək üçün konkret tədbirlər görməyə çağırır.
Məqalədə təhsilin iqlim dəyişikliyinin həllində mərkəzi rolu vurğulanır. Həmçinin YUNESKO-nun Yaşıl Məktəb Keyfiyyət Standartını hazırlamağa yönəlmiş Birləşmiş Ərəb Əmirliyinin Təhsil Nazirliyi ilə birgə təşkil etdiyi ilk təhsil pavilyonunu da təqdim edilir.

YUNESKO-nun dünya miqyasında iqlim dəyişikliyi ilə əlaqədar təhsil sahəsində mövcud boşluqları aradan qaldırmaq üçün fəal işlər gördüyü də məqalədə vurğulanır. Bura kurikulumların uyğunlaşdırılması, müəllimlərin təkmilləşdirilməsi, məktəblərin yenidən nəzərdən keçirilməsi və icmaların səlahiyyətləndirilməsi kimi müxtəlif tədbirlər daxildir.

Eyni zamanda YUNESKO iqlim təhsili sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmək üçün Yaşıl Məktəb Keyfiyyət Standartını və yaşıllaşdırma kurikulum təlimatını hazırlayır. Bildirilir ki, YUNESKO hazırda 81 ölkə və 1100-dən çox təşkilatdan dəstək alan Yaşıllaşdırma Təhsil Tərəfdaşlığına katiblik edir. Bu çərçivədə, 126 ölkə iqlim dəyişikliyini təhsil yolu ilə həll etməyi öhdəsinə götürmüş, 60 ölkə kurikulumları gözdən keçirməyi planlaşdırmış, 70 ölkə müəllimlərə iqlim dəyişikliyi, onun təhsilə təsiri və təhsildə iqlim dəyişikliyinə qarşı mübarizə kontekstində təlimlər təşkil etməyi təklif etmişdir.

İqlim dəyişikliyinin təhsil hüququna təsiri də prioritet məsələ kimi məqalədə qeyd olunur. Belə ki, müxtəlif səbəbdən 2022-ci ildə 32,6 milyon insan məcburi köçkün vəziyyətinə düşmüşdür və bu da iqlim dəyişikliyinin təhsil hüququna təsirini artırır. YUNESKO-nun bu sahədə tərtib etdiyi qlobal hesabat, siyasətçilərə iqlim dəyişikliyinə məruz qalan insanların təhsil hüququna hörmətlə yanaşmağa, onu qorumağa və yerinə yetirməyə nail olmağa kömək edir. Məqalə iqlim təhdidi altında olan əhalinin təhsil hüququnun qorunmasını təmin etmək üçün siyasət rəhbərliyi təklif edir və iqlim təhsili sahəsində mövcud olan maneələri dəf etməyə kömək edir.

Bundan əlavə, qlobal miqyasda iqlim dəyişikliyi ilə əlaqədar maarifləndirmənin olmamasının vacib problem olduğu məqalədə öz əksini tapır. Belə ki, problemin qloballaşmaması iqlim dəyişikliyinə qarşı effektiv fəaliyyətin qarşısını aldığına dair bir göstəricidir.
Həmçinin YUNESKO-nun Qlobal Təhsil Monitorinqi (GEM) hesabatına əsasən ölkələrin 62%-də iqlim dəyişikliyi üçün xüsusi milli səviyyədə qanunlar, siyasətlər və strategiyaların olmaması da məqalədə qeyd olunur. Bu boşluğu aradan qaldırmaq məqsədilə YUNESKO "Qlobal Təhsil Monitorinqi", "İqlim maarifləndirilməsi və təhsil layihəsinin monitorinqi və qiymətləndirilməsi" (MECCE) layihəsi ilə əməkdaşlıq edir. Layihə, əhalinin 75%-ni əhatə edən iqlim dəyişikliyi ilə bağlı kommunikasiya və təhsil siyasətləri üzrə ölkə profillərini tərtib edir. Bu təşəbbüs, iqlim dəyişikliyi ilə bağlı kommunikasiya və təhsil siyasətlərinin həyata keçirilməsinin sübut bazasını təkmilləşdirmək məqsədi daşıyır.

Mənbə:https://www.unesco.org/en/articles/unesco-cop28-making-education-long-term-solution-climate-crisis

# Amerika Birləşmiş Ştatları, Virciniya ştatı: Karyera Hazırlığı İcmalı

Virciniya Təhsil Departamenti və OECD tərəfindən gənclərin iş həyatına hazırlığı, iş sisteminin əhatəli qiymətləndirilməsi ilə bağlı hesabat hazırlanmışdır. Hesabat ABŞ-ın Virciniya ştatında yaşayan yeniyetmələrin karyera inkişafının detallı təhlilini həyata keçirir. Hesabat təhsildən işə keçid zamanı gənclərin qarşılaşdıqları çətinlikləri vurğulayaraq mövcud məlumatlara, tədqiqatlara və siyasətlərə əsaslanır.

Hesabatda təhsilin əmək bazarı imkanları ilə daha sıx uyğunlaşdırılmasının zəruriliyi vurğulanaraq, müəllimlərin işə qəbulunun diversifikasiyası, təlimlərin artırılması, işəgötürənlərin əmək bazarına cəlb edilməsi, əməkdaşlığın gücləndirilməsi və peşələrə diqqətin yönəldilməsi üçün konkret tövsiyələr verilmişdir.

Bundan əlavə, hesabatda gənclərin ixtisaslı məşğulluğa marağının genişləndirilməsi və iş həyatına bərabər çıxışın təmin edilməsinin zəruriliyi vurğulanmışdır. Hesabatda coğrafi fərqləri aradan qaldırmaq və karyera inkişafında fərdiləşdirməni artırmaq üçün rəqəmsal texnologiyalardan istifadə potensialı da vurğulanmışdır.

Hesabat Virciniya ştatında 150 milyon ABŞ dolları büdcə ilə dəstəklənən İnnovasiya Laboratoriya Məktəblərinin tətbiqi ilə dövlətin innovativ təhsil təcrübəsini vurğulayır. Bu məktəblər bağçadan 12-ci sinfə kimi (K-12) təhsil müəssisələri, ali təhsil və işəgötürənlər arasında tərəfdaşlıq yolu ilə formalaşan təhsil proqramlarını əhatə edir. Eyni zamanda, təhsildən yayınan şagirdlərə xüsusi diqqət yetirərək, təhsil sistemini çoxsaylı karyera yollarına çevirməyi hədəfləyir. Bu məktəblər kompüter və məlumat elmi, İT (kibertəhlükəsizlik və bulud hesablamalarına diqqət yetirərək), dəniz sənayesi, aerokosmik, tədris və səhiyyə kimi peşələri hədəfləyir. Karyera və Texniki Təhsil işə əsaslanan öyrənmə, sənayedə tanınan sertifikatlar və sənaye peşəkarlarından birbaşa təlimat təklif edir.

Proqramlarda liseylər və kolleclər arasında ikili təhsil proqramları, Corc Meyson Universitetinin Erkən İdentifikasiya Proqramı və Bağçadan 12-ci sinifə kimi STEM proqramları kimi təhsil inovasiyalarının nümunələri də hesabatda öz əksini tapır.

Bundan əlavə Virciniyadakı maliyyələşdirmə mənzərəsi ictimai təhsil üçün yerli mənbələri (47%), dövlət fondları (43%) və federal mənbələri (10%) əhatə edir. Bildirilir ki, Virciniya, ev təsərrüfatlarının orta gəlirlərinə görə bir şagirdə düşən dövlətdaxili maliyyələşdirməyə görə 2022-ci ildə 40-cı yeri tutmuşdur. Bu da məktəblərin müxtəlifliyi, şagird kontingenti, resursları və irqi/etnik tərkibində fərqlənən 131 rayonda təxminən 1.3 milyon şagirdin qeydiyyatı ilə aydın görünür. Lakin bu müxtəliflik bərabərliyə nail olmaqda çətinliklər yaradır. Virciniyadakı gənclərin əksəriyyəti (73%) ali təhsilə yönləndirilmiş karyera yollarını seçir.

Hesabat Birləşmiş Ştatlar ərazisində gənclər arasında işsizlik problemini beynəlxalq kontekst əsasında araşdıraraq Virciniya ştatında orta təhsildən sonrakı təhsilin faydalarını vurğulayır.

Virciniya ştatında gənclərin məşğulluq dərəcələri 16-19 yaşlı gənclər arasında məşğulluq növlərinin qarışığını göstərdiyi hesabatda qeyd olunur. Gənclər arasında işsizlik nisbəti (15-24 yaş) ölkə üzrə orta göstəricidən aşağı olsa da, ən çox üstünlük verilən peşələrə Peşəkar, Elmi və Texniki Xidmətlər, Səhiyyə və Sosial Yardım, Pərakəndə satış, Yerləşdirmə və Qida Xidmətləri daxildir.

Həmçinin hesabatda qeyd olunur ki, Virciniya ştatında karyeraya hazırlıq konsepsiyasının təhsil, təlim, məşğulluq, icma və özəl sektorlardakı sistemlər arasında kəsişmə mövcuddur. Bu da, gənclərə daha effektiv karyera yollarını seçmələrinə, təhsil və iş sahələri arasında daha yaxşı uyğunlaşmağa kömək edir.

Hesabatın diqqət yetirdiyi digər bir məsələ də, Virciniya ştatının karyeraya hazırlıq sisteminin hərtərəfli təhlilidir. Bu, problemlərin həlli təlimlərin, peşə seçimlərinin təşviq edilməsi və əməkdaşlıqda effektiv təcrübələrin paylaşılması məqsədilə əhəmiyyətli görünür. Həmçinin, Virciniya Təhsil Şurasının prioritetlərinə Virciniya Məzun Profilinin uğurla həyata keçirilməsi və 2030-cu ilə qədər bütün Virciniyalıların dərəcə və ya orta təhsili bitirməsi məqsədini də daxil edir.



Virciniya Təhsil Departamenti və OECD tərəfindən gənclərin iş həyatına hazırlığı, iş sisteminin əhatəli qiymətləndirilməsi ilə bağlı hesabat hazırlanmışdır. Hesabat ABŞ-ın Virciniya ştatında yaşayan yeniyetmələrin karyera inkişafının detallı təhlilini həyata keçirir. Hesabat təhsildən işə keçid zamanı gənclərin qarşılaşdıqları çətinlikləri vurğulayaraq mövcud məlumatlara, tədqiqatlara və siyasətlərə əsaslanır.

Hesabatda təhsilin əmək bazarı imkanları ilə daha sıx uyğunlaşdırılmasının zəruriliyi vurğulanaraq, müəllimlərin işə qəbulunun diversifikasiyası, təlimlərin artırılması, işəgötürənlərin əmək bazarına cəlb edilməsi, əməkdaşlığın gücləndirilməsi və peşələrə diqqətin yönəldilməsi üçün konkret tövsiyələr verilmişdir.

Bundan əlavə, hesabatda gənclərin ixtisaslı məşğulluğa marağının genişləndirilməsi və iş həyatına bərabər çıxışın təmin edilməsinin zəruriliyi vurğulanmışdır. Hesabatda coğrafi fərqləri aradan qaldırmaq və karyera inkişafında fərdiləşdirməni artırmaq üçün rəqəmsal texnologiyalardan istifadə potensialı da vurğulanmışdır.

Hesabat Virciniya ştatında 150 milyon ABŞ dolları büdcə ilə dəstəklənən İnnovasiya Laboratoriya Məktəblərinin tətbiqi ilə dövlətin innovativ təhsil təcrübəsini vurğulayır. Bu məktəblər bağçadan 12-ci sinfə kimi (K-12) təhsil müəssisələri, ali təhsil və işəgötürənlər arasında tərəfdaşlıq yolu ilə formalaşan təhsil proqramlarını əhatə edir. Eyni zamanda, təhsildən yayınan şagirdlərə xüsusi diqqət yetirərək, təhsil sistemini çoxsaylı karyera yollarına çevirməyi hədəfləyir. Bu məktəblər kompüter və məlumat elmi, İT (kibertəhlükəsizlik və bulud hesablamalarına diqqət yetirərək), dəniz sənayesi, aerokosmik, tədris və səhiyyə kimi peşələri hədəfləyir. Karyera və Texniki Təhsil işə əsaslanan öyrənmə, sənayedə tanınan sertifikatlar və sənaye peşəkarlarından birbaşa təlimat təklif edir.

Proqramlarda liseylər və kolleclər arasında ikili təhsil proqramları, Corc Meyson Universitetinin Erkən İdentifikasiya Proqramı və Bağçadan 12-ci sinifə kimi STEM proqramları kimi təhsil inovasiyalarının nümunələri də hesabatda öz əksini tapır.

Bundan əlavə Virciniyadakı maliyyələşdirmə mənzərəsi ictimai təhsil üçün yerli mənbələri (47%), dövlət fondları (43%) və federal mənbələri (10%) əhatə etdir. Bildirilir ki, Virciniya, ev təsərrüfatlarının orta gəlirlərinə görə bir şagirdə düşən dövlətdaxili maliyyələşdirməyə görə 2022-ci ildə 40-cı yeri tutmuşdur. Bu da məktəblərin müxtəlifliyi, şagird kontingenti, resursları və irqi/etnik tərkibində fərqlənən 131 rayonda təxminən 1.3 milyon şagirdin qeydiyyatı ilə aydın görünür. Lakin bu müxtəliflik bərabərliyə nail olmaqda çətinliklər yaradır. Virciniyadakı gənclərin əksəriyyəti (73%) ali təhsilə yönləndirilmiş karyera yollarını seçir.

Hesabat Birləşmiş Ştatlar ərazisində gənclər arasında işsizlik problemini beynəlxalq kontekst əsasında araşdıraraq Virciniya ştatında orta təhsildən sonrakı təhsilin faydalarını vurğulayır.

Virciniya ştatında gənclərin məşğulluq dərəcələri 16-19 yaşlı gənclər arasında məşğulluq növlərinin qarışığını göstərdiyi hesabatda qeyd olunur. Gənclər arasında işsizlik nisbəti (15-24 yaş) ölkə üzrə orta göstəricidən aşağı olsa da, ən çox üstünlük verilən peşələrə Peşəkar, Elmi və Texniki Xidmətlər, Səhiyyə və Sosial Yardım, Pərakəndə satış, Yerləşdirmə və Qida Xidmətləri daxildir.

Həmçinin hesabatda qeyd olunur ki, Virciniya ştatında karyeraya hazırlıq konsepsiyasının təhsil, təlim, məşğulluq, icma və özəl sektorlardakı sistemlər arasında kəsişmə mövcuddur. Bu da, gənclərə daha effektiv karyera yollarını seçmələrinə, təhsil və iş sahələri arasında daha yaxşı uyğunlaşmağa kömək edir.

Hesabatın diqqət yetirdiyi digər bir məsələ də, Virciniya ştatının karyeraya hazırlıq sisteminin hərtərəfli təhlilidir. Bu, problemlərin həlli təlimlərin, peşə seçimlərinin təşviq edilməsi və əməkdaşlıqda effektiv təcrübələrin paylaşılması məqsədilə əhəmiyyətli görünür. Həmçinin, Virciniya Təhsil Şurasının prioritetlərinə Virciniya Məzun Profilinin uğurla həyata keçirilməsi və 2030-cu ilə qədər bütün Virciniyalıların dərəcə və ya orta təhsili bitirməsi məqsədini də daxil edir.

Mənbə: OECD (2023), Career Readiness Review: The Commonwealth of Virginia, United States, OECD Publishing, Paris, https://doi.org/10.1787/a5ff0e6c-en